UOT: 338.43; JEL Il2; UDC 338.1; 006

Nigar Ağabala qızı GÜLMALIYEVA
Azərbaycan Kooperasiya Universiteti, doktorant
https://doi.org/10.30546/4.71.730.02.2026.1156

BİZNES SUBYEKTLƏRİNİN RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ KLASTERLƏRİN ROLU

Xülasə

Tədqiqatın məqsədi – ölkənin biznes subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsinə klasterlərin verdiyi və gözlənilən töhfəni müəyyən etməkdir. Bu məqsədlə, klaster təşəbbüslərinin biznesin rəqabət qabiliyyətinə təsirini əks etdirən nəzəri və təcrübi məsələlər vahid rakursda tədqiq olunur. Tədqiqatda Azərbaycanın biznes subyektlərinin klaster əsaslı inkişaf şəraitində rəqabət qabiliyyətinə təsir edən amillər səciyyələndirilir. Biznes subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsində klasterlərin rolu qiymətləndirilir.

Tədqiqatın metodologiyasını elmi abstraksiya, analiz, sintez, müqayisə və ümumiləşdirmə metodlarının durduğu açıq məlumat bazalarından istifadə və araşdırmalar sayəsində klasterlərin biznesin rəqabət qabiliyyətinə təsirinin qiymətləndirilməsinin iqtisadi göstəricilərinin təhlili və klasterdə dəyişikliklərin struktur təhlili metodları təşkil edir.

Tədqiqatın tətbiqi əhəmiyyəti nöqteyi-nəzərindən məqalədə əldə edilmiş nəticələrin müasir dövrdə biznes subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsində klasterlərin rolunun qiymətləndirilməsi və yüksəldilməsi istiqamətində görülən tədbirlərin hazırlanması və icrasında istifadə imkanlarında ifadə olunur.

Tədqiqatın nəticələrinin biznes subyektlərinin rəqabət qabiliyyətini yüksəltməyə xidmət edəcəyini söyləmək olar. Nəticələr göstərir ki, klasterlər biznesin dayanıqlı innovasiyalı inkişafına ciddi töhfə verməkiqtidarındadır. Həmin töhfənin reallaşdırılması üçün səmərəli əməli tədbirlərin hazırlanması və həyata keçirilməsinin elmi təminatı gücləndirilməlidir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – klaster əsaslı inkişafın biznes subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsində rolunu səciyyələndirmək üçün tənzimlənən bazar mühiti tələblərinə uyğunluq meyarları da nəzərə alınmışdır. Müasir biznes subyektlərinin klaster təşəbbüslərini reallaşdırma potensialı xarakterizə olunmaqla dövlətin təkanverici rolu qiymətləndirilmişdir. Sadalanan və digər müddəalar bazasında biznes subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsində klasterlərin rolunun hərtərəfli xarakteristikası üçün təklif və tövsiyələr hazırlanmışdır.

Açar sözlər: biznes, klaster, rəqabət qabiliyyəti, biznes subyektləri, dəyər zənciri, yaşıl iqtisadiyyat, rəqəmsal transformasiyalar, innovasiya, səmərəlilik.

Giriş

Tədqiqat Azərbaycanın biznes mühitində klaster əsaslı inkişafın, klaster təşəbbüslərinin biznes subyektlərinin rəqabət qabiliyyətinə təsirinin səciyyələndirilməsi və həmin subyektlərin rəqabət qabiliyyətinin yüksəldilməsində klaster potensialının reallaşdırılması üzrə təklif və tövsiyələrin hazırlanmasını nəzərdə tutur. Təqdim olunan tədqiqatda biznesin rəqabət qabiliyyətinə təsir edən amillərin, o cümlədən klasterlərin rolunun səciyyələndirilməsi üçün nəzəri araşdırmalar aparılmışdır.

Tədqiqatın əsas məhdudiyyətləri qismində verilənlərin natamamlığı və asimmetriyası qeyd edilməlidir. Biznesin klaster əsaslı inkişafı imkanlarına fərqli münasibətlərin nəticələrinin hərtərəfli qiymətləndirilməsi çətinlikləri də tədqiqatın əsas məhdudiyyəti kimi diqqətə layiqdir. Ölkədə biznes subyektlərinin fəaliyyəti üzrə verilənlərin tərkibi, xüsusilə son illər əhəmiyyətli dərəcədə genişlənsə də, həmin tərkib təfərrüatlı araşdırmalar üçün zəruri səviyyədə deyildir.

Biznes subyektlərinin rəqabət qabiliyyəti və onun yüksəldilməsi problemləri iqtisadçı alimlərin diqqət mərkəzindədir. Həmin problemləri iqtisad elminin klassiklərindən tutmuş, müasirlərimiz

olan tədqiqatçılara qədər böyük sayda alimlər araşdırmışlar. Dövrümüzdə rəqabət qabiliyyəti və biznes klasterlərinin inkişafı problemləri xarici ölkələrin F.Kotler, M.Porter, P.Samuelson, Y.Şumpeter, Kuksa Ihor, Boja Catalin, Kirova Antoaneta, Kalicanin Djordje, Kuzmina Y.D., Morjakova K.E., Karpov A.R. və bir sıra digər alimləri tərəfindən tədqiq olunmuş, mühüm elmi və təcrübi əhəmiyyətə malik nəticələr əldə edilmişdir. Azərbaycanda rəqabət qabiliyyəti və onun təmin edilməsində klaster amilinin roluna dair Z.Səmədzadə, T.Əliyev, Q.Manafov, N.İmanov, X.Kərimov və başqaları tərəfindən aparılan tədqiqatlar mühüm elmi nəticələri və məhsuldarlığı ilə fərqlənir. Bununla belə, biznesin rəqabət qabiliyyətinə klaster əsaslı inkişafın təsiri problemləri, xüsusilə yeni çağırışlar fonunda kifayət qədər tədqiq olunmamışdır.

Biznesin rəqabət qabiliyyəti və klaster amili

Biznes subyektlərinin rəqabət qabiliyyəti onların davamlı və səmərəli fəaliyyətinin başlıca şərtidir. Həmin subyektlərin rəqabət qabiliyyətinin yüksəldilməsi üçün hazırda mütərəqqi yanaşmalardan və vasitələrdən istifadə edilir. Bu baxımdan, zənnimizcə, klaster əsaslı inkişaf yanaşması xüsusi diqqətə layiqdir. Azərbaycanda klaster əsaslı inkişafın təşviqi istiqamətində həyata keçiriləcək işlər rəsmi sənədlərdə öz əksini tapmışdır. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində göstərildiyi kimi “Təhsil-elm-istehsal” infrastrukturunun çevik işləmə mexanizminin qurulması üçün regional və funksional universitet və istehsal klasterlərinin yaradılması ilə bağlı fəaliyyətlər həvəsləndiriləcəkdir. Çoxsəviyyəli fasiləsiz təhsil sisteminin, universitet komplekslərinin, elmi-tədqiqat müəssisələri (AMEA və sahə institutları) və onların fəaliyyətinin iqtisadi effektivliyini artıran istehsal və xidmət sahələrinin inkişafı dəstəklənəcəkdir” [1].

Son dövrlərdə regenerativ istisadiyyatın əsas müddəaları formalaşır, aparıln tədqiqatlarda onun yaşıl, dairəvi və birgə istehlak iqtisadiyyatı kimi bir-birini tamamlayan tərkib hissələrinin qarşılıqlı əlaqələrinə müəllif münasibəti bildirilir [2]. Həmrəylik iqtisadiyyatı və dayanıqlı inkişaf konsepsiyalarının reallaşdırılmasının zəruriliyi daha tez-tez qeyd olunur. Başqa sözlə, biznes subyektlərinin mənafeləri arasında kəsişən məqamların axtarışı və birgə fəaliyyət səylərinin təşviq olunmasının məqsədəuyğunluğuna dair elmi-nəzəri cəhətdən əsaslandırılmış müddəalar özünə daha çox diqqət cəlb edir. Qeyd olunan və digər paradiqma yenilənmələri biznes subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi mühitində indiyə qədər az istifadə olunan əməkdaşlıq imkanlarının aşkar edilməsi və onların gerçəkləşdirilməsi məsələlərini gündəliyə çıxarır. Sözü gedən yenilənmələr biznes fəaliyyətinin ərazi və sahə xüsusiyyətlərində ifadə olunan fərqlərin azalması ilə müşayiət olunur [3]. Haqqında danışılan fərqlərin minimumlaşdırılması zərurəti tarazlı regional inkişaf strategiysının həyata keçirilməsi məsələlərinin aktuallığını şərtləndirir. Hesab edirik ki, aqrar regionların tarazlı inkişaf potensialının reallaşdırılmasında biznesin klaster əsaslı fəaliyyət amili yaxın perspektivdə daha böyük rol oynayacaqdır.

Müasir dövrdə aqrar regionların və ayrı-ayrı ərazilərin rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən mühüm konsepsiyalardan biri də klasterləşmədir. Klasterin mahiyyətinə gəldikdə, ilkin yanaşmada, demək olar ki, bir neçə obyektin birgəliyini (birləşməsini) ifadə edir. Həmin obyektlərin funksional təyinatı onların birgəliyindən sinergetik effekt əldə etməyə imkan verir [4].

Klassik anlamda biznes klasteri müəyyən istehsal və yaxud xidmət sahəsində əlaqəli şirkətlərin mərkəzi fəaliyyət subyekti ətrafında məkan cəmləşməsidir. Haqqında danışılan klasterlər ona daxil olan istehsal subyektlərində məhsuldarlığı artırmaq, innovasiyaları stimullaşdırmaq və kommersiya mühitini əhəmiyyətli dərəcədə sadələşdirmək iqtidarındadır. Bir qayda olaraq, həmin klasterlərə istehsal və texnoloji aspektdə məqsəd yaxınlığı və yaxud əlaqədar iqtisadi fəaliyyətləri dəstəkləyən şirkətlər daxil olur. Biznes klasterlərdə, istehsal və xidmət sahələrində müxtəlif xarakterli fəaliyyətlər bir-birini tamamlayır. Həmin klasterlərə bir sıra hallarda hətta rəqib biznes subyektlərinin cəlb edilməsi hallarına rast gəlinir.

Məhsulların dəyər zəncirlərində klasterlərin təsiri klaster iştirakçıları arasında qarşılıqlı əlaqələrin yaratdığı sinergetik effektlə bağlıdır. Bir sıra mənbələrdə göstərlilir ki, sinergetik effekt innovasiya klasterlərində daha böyük olur [5]. Azərbaycanda klasterlərin tədqiqinə həsr olunmuş

əsərlərdə bu fikri təsdiqləyən müddəalar vardır [6].

Klasterin fəaliyyət səmərəliliyinin yüksəldilməsi üçün, ilk növbədə iştirakçıların qarşılıqlı fəaliyyətində yaranan sinergetik effektin qiymətləndirilməsi və klaster tərkibində əhatə olunmuş qurumların fəaliyyətinin tənzimlənməsi həyata keçirilməlidir.

Milli iqtisadiyyatın səmərəliliyi iqtisadi subyektlərin fəaliyyətində innovasiyalı klaster təşəbbüsləri, onların xarakteri, əhatə dairəsi və nəticəyönümlüyü ilə bilavasitə əlaqədardır. Biznesin inkişafında klasterial təşəbbüslər rəqabət üstünlüklərinin davamlılığının təmin edilməsi, biznes proseslərinin optimallaşdırılması, resursqoruyucu yanaşmaların mühit yaradan amilə çevrilməsi və qərar qəbulu üçün verilənlər bazasının formalaşması sürətinin artırılması kimi gözləntilər [7] gerçəkləşdirə bilər.

Hesab edirik ki, konkret ərazidə yerləşmiş qurumlar qarşılıqlı rəqabət üstünlüklərini gerçəkləşdirməyə imkan verirsə, əlaqələr dinamik və çevikdirsə, haqqında danışılan birlik, digər zəruri tələblərə cavab verirsə iqtisadi klaster adlandırmaq olar. Haqqında danışılan qurumlar istehsal, təhsil, elm, logistika, xidmət (bank, sığorta və s.) profilli ola bilər. Şərh edilən tərkib innovasiya klasterləri üçün də səciyyəvidir.

Klasterlərin biznes subyektlərinin rəqabət qabiliyyətinə təsirini müxtəlif aspektlərdə və ümumi mövqedən səciyyələndirən müəlliflər [8] göstərirlər ki, sınaqdan çıxmış modellərin belə təcrübi reallaşdırılması mürəkkəb məsələdir. Belə vəziyyət klasterial təşəbbüslərin özünüməxsusluğu və klasterlərin strukturunun onların formalaşması şəraitindəki dəyişmələrə həssaslığı ilə əlaqədardır.

Klasterlərin xüsusiyyətlərinə aşağıdakılar aid edilir:

- eyni profilli iştirakçıların öz aralarında qarşılıqlı rəqabət aparması;
- klaster iştirakçıları olan istehsal, elm və təhsil qurumları arasında əməkdaşlıq;
- ərazinin unikal üstünlüklərinin reallaşdırılması;
- iştirakçıların müəyyən ərazidə cəmləşməsi.

Sonuncu xüsusiyyət rəqəmsallaşma şəraitində bir qədər dəyişikliyə məruz qalmış, coğrafi amilin rolu azalmışdır. Başqa sözlə, biznes subyektlərinin bir-birinə yaxın ərazidə yerləşmə amili, rəqəmsal mühitdə məsafə amilinin əhəmiyyətinin azalması səbəbindən öz təsirini bir qədər itirmişdir. Bununla belə, klaster iştirakçıları olan biznes subyektləri öz müstəqilliklərini itirmirlər. Onlar qarşıya qoyulan məqsədə nail olmaq üçün öz resurslarını şəbəkə daxilində birləşdirirlər. Odur ki, hazırda klaster anlayışına rəqəmsal transformasiyaların formatı və çərçivə tələbləri daxil edilməlidir.

Klasterial biznes təşəbbüslərin reallaşdırılmasında yuxarıda qeyd olunan xüsusiyyətlər müəyyən üstünlüklər və işgüzar fəallıq baxımından əlverişli şərait formalaşdırır. Bunu müvafiq mənbələrdə klaster əsaslı innovasiyalı inkişafın biznesin rəqabət qabiliyyətini yüksəltmək baxımından prioritetlərinə nəzər saldıqda görmək mümkündür. Həmin prioritetlər qismində, ilk növbədə aşağıdakılar qeyd olunur [9]:

- rəqabətədavamlı biznes fəaliyyəti üçün zəruri sayılan ixtisaslara malik olan kadrların hazırlanması üçün biznes və təhsil qurumları arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi;
- klaster iştirakçıları olan biznes, elm və təhsil qurumları arasında real qarşılıqlı əlaqələrin dərinləşdirilməsi və genişləndirilməsi;
- elmtutumlu kiçik və orta biznesin fəaliyyəti üçün tələb olunan, resurslara, o cümlədən maliyyəyə çıxışı asanlaşdıran infrastrukturun formalaşdırılması;
- müştərək innovasiya-texnoloji və marketinq-logistika fəaliyyəti göstərən mərkəzlərin yaradılması;
- biznes üçün əlverişli olan institusional mühitin yaradılması və inkişafı. Bu baxımdan, ilk növbədə normativ-hüquqi bazanın möhkəmləndirilməsi, standartlaşdırma və sertifikatlaşdırma sistemlərinin təkmilləşdirilməsi qeyd olunmalıdır.

Biznesin rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya, qeyd olunduğu kimi, bəzi qeyd-şərtlərlə aparıcı rola malik amildir. Bu baxımdan, təcrübədən göründüyü kimi, texnoloji innovasiyaların rolu daha böyükdür. Texnoloji inkişafın müasir biznes proseslərində artan rolu biznes

subyektlərinin rəqabət qabiliyyətinə də təsirsiz qalmır. Yeni texnologiyaların yayılmasının təşviqi biznesin inkişafının dayanıqlığında müsbət və bəzi hallarda ziddiyyətli rol oynayır. Məsələ ondadır ki, texnoloji innovasiyalar, deyək ki, məhsuldarlığa müsbət təsir etsə də, struktur əməlgətirmə proseslərini müəyyən müddətə ləngidə bilir. Belə olan halda biznesin klaster əsaslı fəaliyyətdən yararlanması qeyd olunan müddətdə məhdudlaşa bilir.

Biznes subyektlərinin hədəf bazarda rəqabət üstünlüklərinin reallaşmasında klaster amilinin rolu kifayət qədər yüksək qiymətləndirilir [10]. Hədəf bazarda rəqabət üstünlükləri, ilk növbədə təklif edilən məhsulun (xidmətin) nadir sayılan xüsusiyyətləri və biznes subyektinin şaxəli fəaliyyətinin nəticəsi kimi üzə çıxır. Üstünlük həmin məhsulun (xidmətin) nadir keyfiyyətləri müqabilində müştərinin ödəməyə hazır olduğu məbləğdə ifadə olunur. Rəqabət üstünlükləri bazar, texnoloji, resurs (xammal), innovasiya, idarəetmə və digər xarakterli ola bilər. Resursqoruyuculuq üçün əhəmiyyətli olan ilkin şərtlərin mövcudluğu məhsulun müştəriyə münasib qiymətlə satılmasına imkan verirsə, bu, rəqabət üstünlüyünün real təzahürü sayılır. Məlumat üçün bildirək ki, eyni miqdarda resurslardan daha çox məhsul etmək qabiliyyətində ifadə olunan mütləq rəqabət üstünlüyündən fərqli olaraq, müqayisəli üstünlük məhsulu daha az və alternativ məsrəflərlə hazırlamaq qabiliyyətində özünü göstərir.

Təklif edilən məhsulun (xidmətin) müştərinin diqqətini cəlb etməsi amili də rəqabət üstünlüyü kimi özünü göstərir. Bu amilin rəqəmsal transformasiyalar dövründə artan əhəmiyyəti elmi dövriyyəyə “diqqət iqtisadiyyatı” termininin çıxmasına səbəb olmuşdur. Yeri gəlmişkən, müştəri diqqəti amili konkret məhsul və xidmət qrupunu əhatə edən klasterlərin fəaliyyətinin vacib komponenti hesab edilir.

Xarici təcrübənin təhlilinin nəticələri göstərir ki, [11] klasterin formalaşmasının ilkin mərhələsində dövlət tərəfindən göstərilən dəstək mühüm əhəmiyyətə malikdr. Həmin dəstək məsləhət, təşkilati və maliyyə xarakterli ola bilər.

Biznesin rəqabətədavamlılığı üçün klaster əsaslı inkişaf potensialının reallaşdırılması

Artıq qeyd olunduğu kimi, innovasiya klasterləri biznesin rəqabət qabiliyyətinin yüksəldilməsi və biznes mühitinin dayanıqlığının təmin edilməsində mühüm rol oynamaq iqtidarındadır [12]. Müraciət edilən və bir sıra digər mənbələrdə qeyd olunduğu kimi, biznes klasterlərinin uğuru həlledici dərəcədə onun innovativ olması ilə əlaqədardır. İnnovativlik klasterdə, ilk növbədə əlaqələrin intensivliyi, qarşılıqlı faydalılığı və operativliyində özünü göstərməlidir. Əks halda, coğrafi yaxınlıq amilinin əhəmiyyətinin azaldığı müasir klasterdə əlaqələrdən faydalanmaqda ifadə olunan başlıca üstünlüyü reallaşdırmaq problemli ola bilər.

Biznes subyektlərinin rəqbətədavamlılığının artırılması üçün klasterial təşəbbüslərin dəstəklənməsi, onların inkişaf potensialının gerçəkləşdirilməsində mühüm rola malikdir. Haqqında danışılan dəstəklənmə mexanizminin reallaşdırılmasında rəqəmsal texnologiyalardan istifadə vacib addım hesab edilir. Klaster əsaslı inkişaf potensialının reallaşdırılmasında rəqəmsal platformaların tətbiqi imkanları diqqət mərkəzindədir. Biznes klasterlərinin ekosistemlə qarşılıqlı əlaqələrinin reallaşdırılmasında həlledici rola malik rəqəmsal platformalar vasitəçilik fəaliyyətinin optimallaşdırılmasına ciddi töhfə verə bilər. Haqqında danışılan klasterlərin idarə edilməsində rəqəmsal platformaların şərtləndirdiyi üstünlüklərdən istifadə biznesin səmərəliliyinin artırılmasında əhəmiyyətli imkanlar açır. Həmin imkanların real biznes mühitində gerçəkləşdirilməsi nəticələri ilk növbədə məsrəflərin, xüsusi ilə transaksiya xərclərinin azaldılmasında ifadə olunur. Müasir biznes klasterlərin idarə edilməsində rəqəmsal platformaların şərtləndirdiyi üstünlüklər qismində itkilərin azaldılması və ümumilikdə resursqoruyucu texnologiyaların tətbiqi üçün əlverişli mühitin yaradılması qeyd oluna bilər. Məsələ ondadır ki, klaster əsaslı inkişaf potensialının reallaşdırılması üçün mövcud imkanların reallaşdırılması yolunda meydana çıxan maneələrin əksəriyyəti resurslardan səmərəli istifadə problemləri ilə əlaqədardır. Rəqəmsal platformalar isə məhz dairəvi iqtisadiyyat üçün əlverişli mühitin formalaşdırılmasında həm idarəetmə, həm də institusional müstəvidə müsbət dinamikanı şərtləndirmək iqtidarındadır.

Günümüzdə müxtəlif ölçülü biznes subyektlərinin rəqabətədavamlı fəaliyyətindən danışarkən,

müasir bazarda hüquqi müstəviyə çıxarılan münaqişələrin sayının artması və tərkibinin genişlənməsini qeyd etmək lazımdır. Bu müstəvidə klasterlərin əksər hallarda hüquqi öhdəlik yaratmaması xüsusiyyəti, zənnimizcə, əhəmiyyətli amildir. Başqa sözlə, ilkin klaster təşəbbüsləri göstərən və ya ona sonradan qoşulan iqtisadi subyektləri, bir qayda olaraq özlərinin mənafe və maraqları hərəkətə gətirir. Həmin təşəbbüslərin nəticələrindən biri də, artıq qeyd edilən sinergetik effekt hesabına rəqabət üstünlüklərinin yaranması və reallaşdırılmasıdır [13]. Məhz sinergetik effekt sayəsində ölkədə biznes subyektlərinin fəallığının, onların rəqabət qabiliyyətinin yüksəlməsi ilə müşayiət olunacağı ehtimalı kifayət qədər yüksəkdir.

Müasir biznesin rəqabət qabiliyyətinin yüksəldilməsində klaster əsaslı inkişaf potensialı indiyə qədər kifayət qədər tədqiq olunmasa da, xüsusilə son illər ərzində əldə edilmiş praktiki uğurların təhlili ölkəmizdə həmin potensialın kifayət qədər böyük olduğunu söyləməyə əsas verir. Bunun ilkin səbəblərindən biri mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan liberal bazar iqtisadiyyatına keçid zamanı çoxsaylı, lakin kiçik ölçülü biznes subyektlərinin meydana gəlməsidir. Xeyli dərəcədə bunun nəticəsidir ki, biznes subyektlərinin ölçülərinə görə kiçik, orta və iri bölgüsünə əlavə olaraq mikrobiznes subyektləri də fərqləndirilməyə başlamışdır. İlkin araşdırmalar bu yanaşmanın həm metodoloji, həm də təcrübi baxımdan doğru olduğunu göstərir. Məsələ ondadır ki, ölkədə mikrosahibkarlıq subyektlərinin sayı digər ölçülü subyektlərə nisbətən on dəfələrlə çoxdur. Əlbəttə, yeni yaranan biznes subyektləri arasında da mikroölçülü subyektlərin böyük xüsusi çəkiyə malik olduğu qeyd edilməlidir.

Bir məsələni xüsusi olaraq qeyd etməyi vacib hesab edirik. Mikroölçülü biznes subyektlərinin sayının tərəddüdlərlə artması, biznes fəallığının yüksəlməsindən xəbər verir. Bununla belə davamlı fəaliyyət göstərən mikrobiznes subyektlərinin biznes subyektlərinin ümumi sayında xüsusi çəkisi son bir neçə ildə artsa da, hələ də qənaətbəxş sayıla bilməz.

Biznesin rəqabət qabiliyyətinin yüksəldilməsi və klaster əsaslı inkişaf potensialının reallaşdırılması baxımından mikroölçülü biznes subyektlərinin səfərbər olunması üçün müəyyən addımlar atılır. Həmin addımların arzuolunan nəticə verməsi üçün həyata keçirilən tədbirlərin əhatə dairəsi genişləndirilməli və yerlərdə müvafiq institusional təminat təkmilləşdirilməlidir. Məsələ ondadır ki, mövcud institusional çərçivə mikro və kiçik biznes subyektlərinin işgüzar fəallığının, xüsusilə bu və ya digər regionda klaster təşəbbüslərinin dəstəklənməsinə yönəldilməsinə həmişə imkan vermir. Şərh olunan amillər kiçik və mikroölçülü biznes subyektlərinin fəaliyyətinin klaster əsaslı inkişaf strategiyasının tələblərinə uyğunlaşdırılması problemlərinin həllini zərurətə çevirir [14].

Biznes subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsində klaster əsaslı inkişaf potensialının reallaşdırılması istiqamətlərinə müvafiq mənbələrdə [15], ilk növbədə kreativ düşüncəli və innovasiyalara açıq kadr təminatının təşviqi, institusional inkişafa və bazar araşdırmalarına dəstək, inkişaf strategiyasına yeni baxış, idarəetmənin keyfiyyətinin yüksəldilməsi, inzibati maneələrin aradan qaldırılması, innovasiya fəallığının stimullaşdırılması, klaster iştirakçılarına vergi güzəştlərinin və digər imtiyazların verilməsi, infrastrukturun və autsorsinqin inkişafı aid edilir:

Klaster əsaslı inkişaf ilkin yanaşmada sanballı investisiya layihələrinin yerinə yetirilməsində özünü göstərir. Haqqında danışılan inkişaf, eyni zamanda regional resurs və istehsal potensialından səmərəli istifadəyə töhfə verən, məşğulluğun səviyyəsini yüksəldən, xüsusilə onun strukturunu yaxşılaşdıran inteqrasiya proseslərində və sinergetik effektin reallaşdırılmasında, bir sözlə, biznesin rəqabət qabiliyyətinin yüksəldilməsində ifadə oluna bilər.

Nəticə

Biznes subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsində klasterlərin rolunun müəyyən edilməsi üçün nəzəri və təcrübi aspektlərin vahid rakursda araşdırılması klaster əsaslı inkişafın real potensiala malik olduğunu göstərir. Klaster əsaslı biznes fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün iştirakçıların qarşlılıqlı fəaliyyətindən irəli gələn sinergetik effektin qiymətləndirilməsi və tənzimlənməsi məqsədəuyğundur. Klasterial təşəbbüsləri sayəsində biznes subyektlərinin rəqabət üstünlüklərinin reallaşdırılması, biznes proseslərinin optimallaşdırılması, resursqoruyucu yanaşmaların gücləndirilməsi üçün real imkanlar vardır. Tədqiqat nəticəsində klasterlərin

xüsusiyyətləri dəqiqləşdirilmiş, biznes subyektlərinin hədəf bazarda rəqabət üstünlüklərinin reallaşdırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından klaster əsaslı innovasiyalı inkişafın prioritetlərinə münasibət bildirilmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
2. Jain, Yashi. (2021). Regenerative Economies: A New Approach Towards Sustainability. 10.1007/978-3-319-69625-6_80-1
3. Логинов И. С., Вертакова Ю. В., Клевцова М. Г. Исследование структурных изменений в экономике региона на основе критериев отраслевой сбалансированности // Вестник Курской государственной сельскохозяйственной академии. 2022. №9. URL: https://cyberleninka.ru /article/n/issledovanie-strukturnyh-izmeneniy-v-ekonomike-regiona-na-osnove-kriteriev-otraslevoy-sbalansirovannosti
4. Kuksa, Ihor & Parkhomenko, Olga & Hnatenko, Iryna & Rubezhanska, Viktoriia. (2019). Synergistic effect in innovation clusters: essence and features of evaluation. Economies' Horizons. 4-12. 10.31499/2616-5236.4(11).2019.200793
5. Zhang, Jinyue & Sun, Zhenglin. (2025). Does the synergy between fintech and green finance lead to the enhancement of urban green total factor energy efficiency? Empirical evidence from China. Journal of environmental management. 382. 125366. 10.1016/j. jenvman.2025.125366
6. Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı: Elm və təhsil, 2013, 385 s.
7. Kirova, Antoaneta. (2018). PROSPECTS FOR BUSINESS CLUSTERS IN THE REPUBLIC OF BULGARIA. MEST Journal. 6. 63-71. 10.12709/mest.06.06.02.08
8. Boja, Catalin. (2011). Clusters Models, Factors and Characteristics. International Journal of Economic Practices and Theories. 1. 34-43
9. Кузьмина Ю. Д. Инновационные кластеры: сущность и особенности // Современные тенденции в экономике и управлении: новый взгляд. 2011. №11-1. URL: https://cyberleninka.ru/article/n/innovatsionnye-klastery-suschnost-i-osobennosti]:
10. Kalicanin, Djordje & Gavric, Olga. (2014). The importance of clusters as drivers of competitive advantage of companies. Ekonomika preduzeca. 62. 164-172. 10.5937/ ekopre1404164K.
11. Моржакова К. Э., Крюкова О. Г. Особенности инновационных кластеров // Стратегии бизнеса. 2016. №6 (26). URL: https://cyberleninka. ru/article/n/osobennosti-innovatsionnyh -klasterov
12. Gilbert, Richard. (2006). Competition and Innovation. Journal of Industrial Organization Education. 1. 8-8. 10.2202/1935-5041.1007
13. Uzbekova, A. & Plekhanova, A. & Shibanov, N.. (2015). EVALUATION OF THE SYNERGISTIC EFFECT OF THE CLUSTER. Economy in the industry. 74. 10.17073/2072-1633-2014-3-74-77
14. Navickas, Valentinas & Malakauskaite, Asta. (2009). The impact of clusterization on the development of small and medium-sized enterprise (SME) sector. Journal of Business Economics and Management - J BUS ECON MANAG. 10. 255-259. 10.3846/1611-1699.2009.10.255-259.
15. Воротников К. А. Кластеризация как инструмент повышения конкурентоспособности предприятий // Финансовая аналитика: проблемы и решения. 2009. №7. URL: https://cyberleninka.ru/article/n/klasterizatsiya-kak-instrument-povysheniya-konkurentosposobnosti-predpriyatiy,

Нигяр Агабала кызы Гюльмалиева
Азербайджанский Университет Кооперации, докторант

Роль кластеров в повышении конкурентоспособности субъектов предпринимательства

Резюме

Цель исследования. Целью написания данной статьи является определение вклада кластеров в повышение конкурентоспособности субъектов предпринимательства страны и ожидаемого вклада. Для этого в едином ракурсе изучаются теоретические и практические вопросы, отражающие влияние кластерных инициатив на конкурентоспособность бизнеса. В исследовании характеризуются факторы, влияющие на конкурентоспособность субъектов предпринимательства в Азербайджане в контексте кластерного развития. Оценивается роль кластеров в повышении конкурентоспособности субъектов предпринимательства.

Методология исследования включает использование открытых баз данных и исследований, которые включают методы научной абстракции, анализа, синтеза, сравнения и обобщения, оценку влияния кластеров на конкурентоспособность бизнеса, анализ экономических показателей и структурный анализ изменений в кластере**.**

С точки зрения прикладной значимости исследования полученные в статье результаты выражаются в возможности их использования при подготовке и реализации мер, принимаемых для оценки и повышения роли кластеров в повышении конкурентоспособности субъектов предпринимательства в современных условиях.

Результаты исследования свидетельствуют о том, что оно будет способствовать повышению конкурентоспособности субъектов предпринимательства. Результаты показывают, что кластеры способны внести существенный вклад в устойчивое инновационное развитие бизнеса. Для реализации этого вклада необходимо усилить научное обеспечение разработки и внедрения эффективных практических мер.

Оригинальность и научная новизна исследования. Для характеристики роли кластерного развития в повышении конкурентоспособности субъектов предпринимательства также учитывались критерии соответствия требованиям регулируемой рыночной среды. Охарактеризован потенциал современных субъектов предпринимательства по реализации кластерных инициатив и оценена стимулирующая роль государства. На основе перечисленных и других положений разработаны предложения и рекомендации по комплексной характеристике роли кластеров в повышении конкурентоспособности субъектов предпринимательства.

Ключевые слова: бизнес, кластер, конкурентоспособность, субъекты предпринимательства, цепочка создания стоимости, зеленая экономика, цифровые трансформации, инновации, эффективность.

Nigar Agabala Gulmaliyeva
Azerbaijan University of Cooperation, doctoral student

The Role of Clusters in Improving the Competitiveness of Business Entities

Summary

Purpose of the Study. The purpose of this article is to determine the contribution of clusters to enhancing the competitiveness of business entities in the country and the expected contribution. To this end, theoretical and practical issues reflecting the impact of cluster initiatives on business competitiveness are examined from a unified perspective. The study characterizes the factors influencing the competitiveness of business entities in Azerbaijan in the context of cluster

development. The role of clusters in enhancing the competitiveness of business entities is assessed.

The research methodology includes the use of open databases and research methods, including scientific abstraction, analysis, synthesis, comparison, and generalization, assessment of the impact of clusters on business competitiveness, analysis of economic indicators, and structural analysis of changes in the cluster.

In terms of the applied significance of the study, the results obtained in the article demonstrate their potential for use in the preparation and implementation of measures taken to assess and enhance the role of clusters in enhancing the competitiveness of business entities in the current context.

The results of the study indicate that it will contribute to enhancing the competitiveness of business entities. The results demonstrate that clusters can make a significant contribution to sustainable, innovative business development. To realize this contribution, it is necessary to strengthen scientific support for the development and implementation of effective practical measures.

The originality and scientific novelty of the study. To characterize the role of cluster development in enhancing the competitiveness of businesses, criteria for compliance with the requirements of a regulated market environment were also taken into account. The potential of modern businesses to implement cluster initiatives is characterized, and the facilitating role of the state is assessed. Based on these and other considerations, proposals and recommendations for a comprehensive characterization of the role of clusters in enhancing the competitiveness of businesses are developed.

Key words: business, cluster, competitiveness, businesses, value chain, green economy, digital transformation, innovation, efficiency.